# Pedaqoji əməkdaşlıq şəraitində müəllim-şagird münasibətləri

**Əliyyə Əfəndiyeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** eeliyye@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos.Y.A. Allahverdiyev,
ped.ü.f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** müəllim, şagird, sənət, valideyn, tərbiyə
**Ключевые слова:** учитель, ученик, искусство, родитель, воспитание
**Key words:** teacher, student, art, parent, upbringing

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, müəllimlik çox şərəfli bir işdir. Müəllim olub kiməsə bilik vermək, tərbiyə etmək şərəfli olduğu qədər də məsuliyyətli bir işdir. Müəllim (Ərəbcə: معلم) — konkret fənn üzrə tədris prosesini keçirən səlahiyyətli şəxs, və ya məktəbdə hər hansı bir fəndən dərs deyən şəxs hesab olunur.

Müəllimin başlıca şəxsi keyfiyyətləri sırasında aşağıdakıları qeyd etmək olar:

1) Müəllim yüksək əqidə, məslək sahibi, müəllim — Vətəndaş olmalıdır. O, xalqın, Vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir. Xalq şairi B. Vahabzadə vaxtilə orta məktəbdə ədəbiyyat müəlliminin Hüseyn Cavid və onun ağır həyatı haqqında ürək yanğısı ilə, hətta ağlayaraq dərs keçməsini xatırlayır.

2) Müəllim yüksək mədəniyyətə və mənəviyyata malik olmalıdır. O, özündə zahiri və daxili mədəniyyəti, nəcib əxlaqi keyfiyyətləri (düzlük, ədalətlilik, xeyirxahlıq, humanizm, sadəlik və b.) cəmləşdirməlidir. Müəllim tərbiyə işinə özündən başlamalıdır, çünki özündə olmayan keyfiyyəti başqalarına vermək olmaz.

3) Müəllim dərin biliyə, erudisiyaya malik olmalıdır. Bilik müəllimin əsas silahıdır. Y.A. Komenski biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzədirdi. Belə "müəllim" uşaqlara dərin bilik verə bilməz. Zəif müəllim zəif də şagird, tələbə yetişdirər.

4) Müəllim fənnini, peşəsini və uşaqları sevməlidir. L.N. Tolstoya görə, öz işini sevən müəllim yaxşı müəllimdir, bununla yanaşı uşaqları və fənnini sevən müəllim isə əla müəllimdir. Pedaqogika tarixində uşaqları öz övladı kimi sevən, onlara ürəyini verən müəllimlər az olmamışdır (Y.Korçak, V.A. Suxomlinski, A.S. Makarenko, Y.R. Talıbov, və b.).

5) Müəllim yüksək nüfuz sahibi və uşaqlara nümunə olmalıdır. Dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək olur. Nüfuzu qazanmaq çətin, itirmək isə asandır: yersiz hərəkət, ədalətsiz münasibət, ehtiyatsız söz müəllimi nüfuzdan sala bilər.

Buna görə də, hər bir müəllim sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

Hər bir şagird məktəbə bir fərd kimi gəlir. Onun cəmiyyətdə bir şəxsiyyət kimi formalaşmasını təmin etmək biz müəllimlərin borcudur. Şagirdlərin düzgün peşə seçimində də müəllimlərin rolu əvəzsizdir. Bəzən elə olur ki, hər hansı bir şagird yalnız valideynlərinin istəyi və təkidi ilə hansısa bir peşə üzrə hazırlaşır. Müəllim o şəxslərdəndir ki, o, şagirdlərin hansının hansı peşəyə sahib ola biləcəyini əvvəlcədən duyur. Ən azı müəllim dərs dediyi müddət ərzində həmin şagirdin biliyinə, zəkasına, oxumaq imkanlarına bələddir.

Bu gün Azərbaycan məktəbi haqqında geniş ictimaiyyət arasında müxtəlif fikirlər səslənir. Yaxşı və pis məktəb, güclü və zəif müəllim anlayışları bütün hallarda müasir təhsilimizin səviyyəsinin göstəricisi kimi çıxış edir. Hazırda müəllim nüfuzu, müəllim-şagird münasibətləri, məktəbə olan hörmət və ehtiram barədə söhbət düşəndə mənfi məqamlar daha çox narahatlıq doğurur. İnsanı yetişdirən, formalaşdıran ilk ocaq ailədən sonra məktəb və pedaqoji mühitdir. Müstəqil zövq, fərdi əqidə, əsl vətəndaşlıq səmimiyyəti, mühitlə qaynayıb-qarışmaq, daim axtarışda olmaq meyli, marağı, bir sözlə, bütöv şəxsiyyət probleminin həlli məhz məktəbdən, tədris sistemindən asılıdır. Sovet dövründə formalaşmış klassik müəllim anlayışı artıq dəyişib. İndi müəllimi uzaqdan görən kimi gözdən yayınan, gizlənməyə çalışan şagirdlərə rast gəlmək mümkün deyil: "O dövrdə müəllim şəxsiyyətinə yanaşma bir başqa idi. İndi valideynlər deyir ki, uşağım mənim üçün çox əzizdir, ərköyün saxlanılıb, evdə nazını biz, "kaprizlərini" isə məktəbdə müəllimlər çəkməlidir. Valideyni bu fikirdə olan uşaqdan nə gözləyəsən?! Müəllim intellekti, bilik və təcrübəsi, mehriban davranışı, ünsiyyəti ilə şagirdin diqqətini cəlb etməyə çalışır. Müxtəlif metodlardan istifadə edərək oxumaq arzusu olmayan şagirdin diqqətini dərsə yönəltməyə səy göstərir. Ancaq nəticə alınmadıqda şagirdə öyüd verməkdən belə çəkinir".

Mən müəllim-şagird münasibətlərində valideynin nə olursa olsun, öz övladının tərəfini saxlamasının əleyhinəyəm. "Əvvəllər müəllimlə şagird arasında hər hansı bir problem yarananda valideynlər müəllimin tərəfini tutur, onu dəstəkləyirdilər. İndi isə valideynlərin fikirləri dəyişib. Onların əksər hissəsi hesab edir ki, səbəb nə olursa olsun, şagirdə müəllim tərəfindən hər hansı bir irad bildirilməməlidir. Hətta şagird dərsə hazır olmadığı təqdirdə belə! Valideynlərin bu yalnış fikri isə ilk növbədə şagirdin təlim-tərbiyəsinə öz mənfi təsirini göstərir".

Düzgün qurulmuş müəllim - şagird münasibətləri şagirdlərin təlim marağının artmasında mühüm vasitədir. Qarşılıqlı ünsiyyət şagirdlərin fəallığını artırır, kollektiv şəkildə işləməyə istiqamət verir. Müəllimdə bu tip keyfiyyətlərin olmaması təhsil sistemində şagird - müəllim problemlərinin yaranmasına gətirib çıxarır.

Mükəmməl təhsil sisteminə malik olmaq bu və ya digər bir dövlətin gələcəyinin təmin edilməsi və müstəqilliyinin əbədiliyi üçün mühüm şərtlərdən biridir. Bu səbəbdən də ölkəmizdə həyata keçirilən təhsil islahatının əsas məqsədi məhz təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən təlim-tədris prosesində yaradıcı, müstəqil düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. Ona görə də hər bir müəllim öz bacarıqlı, işgüzar fəaliyyəti ilə müəllim adına layiq olmağa çalışmalı, özünə və şagirdlərinə qarşı tələbkar olmalı, peşəsinə bağlı keyfiyyətləri özündə cəmləşdirməyi bacarmalıdır.

Bütün bunlar təlimdə keyfiyyətin əldə olunması üçün vacib şərtlərdir. Müəllim bütün hallarda, xüsusən, müəllim-şagird münasibətlərinin qurulmasında nəzakəti, etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə

davranmalıdır. Bu, “pedaqoji takt” adlanır. Pedaqoji takt nədir? Pedaqoji takt xüsusi bacarıq növü olub, şagirdlərlə ünsiyyətdə müəyyən hədlərə riayət etmək deməkdir. Takt müəllimin ağlının, hisslərinin və ümumi mədəniyyətinin ümumiləşmiş ifadəsidir. Şagird şəxsiyyətinə hörmət etmək pedaqoji taktı səciyyələndirən əsas xüsusiyyətdir.

Təhsil islahatlarının tələblərinin yerinə yetirilməsində, ilk növbədə, müəllim təlimin yeni texnologiyalarını mənimsəməli, yeni proqram və dərsliklərdən, fənn kurikulumunun tələblərindən irəli gələn dəyişiklikləri tətbiq etməyi bacarmalıdır. Müasir dövrümüzdə müəllim yeni metodlardan istifadə etməklə şagirdlərin idraki fəallığına, müstəqil düşünmə qabiliyyətinin inkişafına daha tez nail ola bilər. İş prosesində müəllim-şagird münasibətlərinin düzgün qurulması şagirdlərin təhsilə marağının artmasında, tədris olunan fənlərin sevdirilməsində mühüm əhəmiyyət kəsb edir. Müəllim və şagird arasında qarşılıqlı hörmət olmalıdır ki, şagird müəlliminin tələblərini həvəslə yerinə yetirsin. Bunun üçün müəllim şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz və ya hərəkət sahibi olmamalıdır. Nə qədər sözə baxmayan, nadinc şagird olsa belə, müəllim özünün pedaqoji metodlarından istifadə edib xoş, isti münasibət yaratmalıdır. Düzgün qurulmuş müəllim-şagird münasibəti şagirdlərin təlim marağının artmasına mühüm təsir göstərir.

Ölkəmizdə aparılan təhsil islahatları, Balonya təhsil və kredit sistemlərinə keçid, təhsilimizdə baş verən yeniliklər və təhsilimizin dünya standartlarına uyğunlaşdırılması, xüsusilə ali pedaqoji təhsilin ardıcıl olaraq təkmilləşdirilməsi yüksək ixtisaslı müəllim kadrların hazırlığına, eləcə də məktəbdə təlim və tərbiyə işlərinin təşkilinə yeni qaydalarla yanaşmağı tələb edir. Bu gün ümumtəhsil məktəblərimiz qarşısında böyük vəzifələr durur. Bu, başlıca olaraq gələcəyimiz etibar ediləcək bugünkü məktəblilərə Azərbaycan mənəviyyatı, mentaliteti, dili və ədəbiyyatı, tarixi, coğrafiyası, incəsənəti, habelə zəngin maddi sərvətlərimiz barəsində dərin və hərtərəfli biliklər verməkdən, yetişən gənc nəsildə yüksək mədəniyyət, mənəviyyat, vətənpərvərlik hissləri formalaşdırmaqdan ibarətdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev məhz bu məsələlər barəsində dəfələrlə çox dəyərli fikirlər söyləmiş və təhsilimizin qarşısında böyük vəzifələr qoymuşdur: “Biz keçmişlərdən fərqli olaraq, indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də, gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər”.

Müəllim-şagird münasibətlərinin düzgün qurulması, ilk növbədə, müəllimlərdə bir sıra qabiliyyətlərin olmasını zəruri tələb kimi qarşıya qoyur. Bu məsələ ilə bağlı müasir pedaqogikada da xeyli araşdırmalar aparılmış və nəticələrə gəlinmişdir. Xüsusən müəllimin müasir dövr üçün xarakterik olan qabiliyyətləri son tədqiqatlarda ayrıca qeyd edilmişdir. Belə nəticəyə gəlinmişdir ki, pedaqoji qabiliyyətlər müəllimin keyfiyyətləridir və onlar yeddi qrupa ayrılır: təşkilatçılıq qabiliyyəti, təlim (öyrətmə) qabiliyyətləri, perseptiv qabiliyyətlər, kommunikativ (ünsiyyət) qabiliyyətlər, suqqestiv (təlqinedici) qabiliyyətlər, tədqiqatçılıq qabiliyyəti, elmi-idrakı qabiliyyətlər. (Paşayev Ə.X, Rüstəmov F.A. Pedaqogika: Yeni kurs. Bakı. “Nurlan”, 2007) Bu qabiliyyətlər zaman keçdikcə dəyişə, tələblərin sayı arta və ya azala bilər. Lakin başlıca şərtlərdən biri bacarıqların zərurilik baxımından təsnif olunmamasıdır.

Müəllimlərin bacarıqları özlüyündə lazım olması baxımından eyni səviyyədə maraq doğursa da, müxtəlif zamanda hər hansı biri digərinə nisbətən daha önəmli görünür. Bu yalnız tədqiqatçıların dövrün tələbindən doğan yanaşma tərzində ifadə olunur. Məsələn, humanist və

demokratik cəmiyyətin qurulduğu bir zamanda müəllimin ilkin keyfiyyəti kimi kommunikativ (ünsiyyət) bacarıqları daha çox əhəmiyyət daşıyır. Şagirdlərinin təlim marağına səbəb olan müəllimlər kommunikativ imkanlarından istifadə edirlər. Yaxud şagird kollektivini təlim prosesinə hazırlamaq, onu ümumi fəaliyyətin məntiqinə tabe etmək üçün ən yaxşı vasitə kommunikativ (ünsiyyət) bacarıqlardır. Yeni pedaqoji prosesdə öyrədən və öyrənən münasibətləri nə qədər əməkdaşlıq baxımından qiymətləndirilsə də, burada şagirdlərin fəallaşdırılması daha qabarıq nəzərə çarpır. Onlar müasir pedaqoji ədəbiyyatlarda qeyd edildiyi kimi, pedaqoji prosesdə subyekt kimi fəaliyyət göstərirlər. Təlim prosesində tədqiqatçılığa cəlb olunur, mövzu ətrafında araşdırmalar aparır, öyrəndiklərini tətbiq edir, müqayisə və təhlillər yolu ilə fakt və hadisələri məntiqi təfəkkür süzgəcindən keçirərək qiymətləndirirlər. Şagirdin təlim prosesindəki fəaliyyəti hər hansı, deklorativ bilikləri imitasiya etmək, təkrarlamaq, yaxud onların tətbiqinə dair nümunələr hazırlayıb nümayiş etdirməklə bitmir. “Şagirdlərin mühakimə yürütməsi, fikirləşməsi, müstəqil nəticə çıxarması – müasir dərsin atributlarıdır. Müəllim-şagird münasibətlərindəki qarşılıqlı fəaliyyət mahiyyət etibarı ilə müasir xarakterli yeni bir təlim şəraitinin meydana çıxması ilə müşayiət olunur. Bu şəraitdə öyrənən xarakterini dəyişir. Yeni təhsil quruculuğunda bu cür yanaşma fəal öyrənmə (təlim) adlandırılır. Akad. A.O. Mehrabov haqlı olaraq qeyd edirdi: “Fəal öyrənmə təlim prosesində xüsusi yer tutur. O, şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və içtimai həyatlarında məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir.

Təlim prosesindəki müəllim və şagird arasında münasibətlərin necə qurulacağı ünsiyyət və qarşılıqlı təsir vasitələrinin xarakterinə birbaşa təsir edir. İlk növbədə indiyədək formalaşmış olan müəllim-şagird münasibətlərinin tipləri ilə tanış olaq. Onlar şərti olaraq 4 tipə bölünür.

Birinci tip – “müəllim-şagird” yüzilliklər ərzində təlim prosesinin aparıcı didaktik modeli olmuşdur. Bu model müəllim və şagird arasındakı bilavasitə əlaqəyə əsaslanır. Belə pedaqoji qarşılıqlı təsirin “prototipi” ana və uşaq arasındakı münasibətlərdir. Didaktik şagird-müəllim münasibətləri praktikada müxtəlif tədris formaları və metodları ilə müşayiət olunur. Burada aktuallaşan münasibətlərə: mentor (mürəbbi) və şagird; “evdə məktəb” müəllimi və şagird; tədrisin müxtəlif sahələrində ustad və şagird; xüsusi qayğıya ehtiyacı olan uşağa bərpaedici-pedaqoji, korreksiyaedici və tibbi proqram kontekstində fərdi olaraq tədrisin aparılması aiddir.

Müasir şəraitdə bu model müxtəlif forma variantlarda müəllim və şagird arasında fərdi-didaktik əlaqə, yaradıcılığa və müstəqilliyə stimullaşdıran iş, fərdi olaraq təlim problemlərinin müzakirəsi və konsultasiyası kimi işlənir. Bu tip pedaqoji qarşılıqlı münasibətlərin ikilik (cüt) şəklində dominantlıq xarakterikdir.

İkinci tip – “müəllim-auditoriya” – bu böyük sayda insan kütləsinə nəsihət vermə, təşviqat, mobilizasiya, maariflənmə məqsədi daşıyan dialoji formada müraciətdir. Auditoriya ilə ünsiyyətin əsas formaları çıxış, təbliğ, məruzə, mühazirədir. Burada materialın və yeni informasiyanın rasional və “ekonomik” təqdim olunması əsas rol oynayır. Bu tip təlim ali məktəb üçün səciyyəvidir.

Üçüncü tipə – “müəllim – qrup” – münasibətləri aiddir. Bu tip üçün vasitəsiz kommunikasiya xarakterikdir. Həmçinin kommunikasiyanın çoxtərəfli və qarşılıqlı münasibətlərin qabarıq əməkdaşlıq xüsusiyyətinə malik olması ilə seçilir.

Dördüncü tip üçün – “müəllim – təlim vasitəsi – şagird” distant təlim xarakterikdir. Burada təlim kompyuter və digər texniki vasitələrlə həyata keçirilir. Şagirdlər tərəfindən təcrübənin mənimsənilməsi şəxsi münasibətlər xaricində mümkün deyil. Məhz münasibətlər çərçivəsində şagird müəllimin qiymətləndirilməsini başa düşür. Həm də şagird özü də

müəllimini qiymətləndirir. Müəllimə münasibət şagirdin uğurunu şərtləndirir. Pedaqoqa qarşı pozitiv münasibət təlimə marağı, şagirdlərin biliklərə yiyələnmə istəyini artırır, fəaliyyətə və əməkdaşlığa həvəsi güclənir.

Belə qarşılıqlı proses olmasa, şəxsiyyətin formalaşması baş verməz. Həmçinin bu zaman müəllim nəyin korreksiyaya ehtiyacı olduğunu, mənimsənildiyini və özünün nəyə əsaslanacağını müəyyənləşdirə bilir. Bu mənimsəmə prosesləri öz-özünə baş vermir. Formalaşan şagird şəxsiyyəti müəllimin dəstəyi nəticəsində digər insanların nəzər nöqtəsini, davranış və əməllərini nəzərə almağın vacibliyini öyrənir.

**Məqalənin aktuallığı.** Məqalə müasir dövrdə pedaqoji əməkdaşlıq şəraitində müəllim-şagird münasibətlərinin öyrənilməsi və bu istiqamətdə yarana biləcək neqativ halların araşdırılması baxımından aktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə indiyədək formalaşmış olan müəllim-şagird münasibətlərinin tipləri geniş təhlil olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika (müxtəsər konspekt və sxemlər): Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2008.

2. Eminli T.B. Ümumtəhsil məktəblərində pedaqoji diaqnostika. Bakı: Mütərcim, 2008.

**А. Эфендиева**

## Отношения учитель-учитель в педагогическом процессе

## Резюме

Роль учителей в выборе правильной профессии незаменима. Учитель должен любить предмет, профессию и детей.

**A. Afandiyeva**

## Teacher-teacher relationships in the pedagogical process

## Summary

Teachers role is indispensable at straightforward professional choose of students. The teacher should love the her subject, her profession and her children.

**Redaksiyaya daxil olub:** 13.02.2018